# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qubada "Səkinə xanım" məscidini ziyarət edib

**Martın 18-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Qubaya səfəri zamanı "Səkinə xanım" məscidini ziyarət edib.**







AZƏRTAC xəbər verir ki, məscidin imamı Hacıhəmdulla Dəniyarlı Leyla Əliyevaya bu ibadət ocağı barədə məlumat verib.

Bildirilib ki, Quba şəhərindəki "Səkinə xanım" məscidi Abbasqulu ağa Bakıxanovun xatirəsini əbədiləşdirmək məqsədilə həyat yoldaşı Səkinə xanım tərəfindən 1854-cü ildə tikdirilib.

Hündürlüyü 27 metr olan tarixi məscid dördbucaqlı formadadır. 1930-cu illərdə məscid sovet hakimiyyəti tərəfindən bağlanaraq, ətrafındakı mədrəsə və köməkçi binalar dağıdılıb. Daha sonra məsciddən anbar kimi istifadə olunub. Bir müddət sonra isə burada tikiş sexi fəaliyyət göstərib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bura yenidən məscid kimi istifadəyə verilib. Məscid əsaslı şəkildə təmir olunub, dəstəmazxana və digər köməkçi binalar inşa edilib. Hazırda "Səkinə xanım" məscidi ölkə əhəmiyyətli tarixi abidə kimi dövlət qeydiyyatındadır.

Azərbaycan. - 2025.- 19 mart (№60).- S.9.